# Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin 2016-cı il üzrə fəaliyyəti haqqında hesabatı

2016-cı ildə dünyada iqtisadi böhranın daha da dərinləşməsinə baxmayaraq, Azərbaycanda bütün istiqamətlər üzrə uğurlu inkişaf dinamikası qorunub saxlanılmış, ölkədə bütün sosial proqramların icrası, əhalinin sosial müdafiəsinin gücləndirilməsi, sosial cəhətdən həssas əhali qruplarının dövlət qayğısı ilə əhatə olunması, əmək hüquqlarının müdafiəsi, aktiv məşğulluq tədbirlərinin təşkili və digər sahələrdə məqsədyönlü işlər, pensiya və sosial-təminat, tibbi-sosial ekspertiza sistemlərinin təkmilləşdirilməsi yönündə islahat tədbirləri uğurla davam etdirilmişdir.

Azərbaycan Prezidenti cənab İlham Əliyevin qlobal iqtisadi və siyası çağırışlara adekvat olaraq həyata keçirdiyi yeni islahatlar kursu ilk növbədə milli sahibkarlığın dövlət tərəfindən dəstəklənməsi əsasında qeyri-neft sektorunun sürətli inkişafını, bu sektor üzrə rəqabət qabiliyyətli və ixrac yönümlü məhsul istehsalının artımını stimullaşdırmağa, nəticədə isə əmək ehtiyatlarından istifadənin genişlənməsinə və məşğulluğun artırılmasına hesablanmışdır.

2016-cı ilin yanvar-noyabr aylarında ölkə əhalisi 40028,5 milyon manatlıq və ya əvvəlki ilin eyni dövrü ilə müqayisədə nominal ifadədə 8,9 faiz çox gəlir əldə etmişdir. Əhalinin hər nəfərinə düşən gəlirlərin nominal məbləği əvvəlki ilin eyni dövrünə nisbətən 7,7 faiz artaraq 4154,7 manat təşkil etmişdir. Bütün icbari və könüllü haqlar ödənildikdən sonra əhalinin sərəncamında 36382,0 milyon manat və ya əhalinin hər nəfərinə orta hesabla 3776,3 manat vəsait qalmışdır.

“Azərbaycan Respublikasında 2016-cı il üçün yaşayış minimumu haqqında” Azərbaycan Respublikasının 2015-ci il 20 oktyabr tarixli 1379-IVQ nömrəli Qanunu ilə 2016-cı ilin 1 yanvar tarixindən yaşayış minimumu ölkə üzrə 136 manat, əmək qabiliyyətli əhali üçün 146 manat, pensiyaçılar üçün 115 manat və uşaqlar üçün 117 manat məbləğində təsdiq edilmişdir.



“Azərbaycan Respublikasında 2016-cı il üçün ehtiyac meyarının həddi haqqında” Azərbaycan Respublikasının 2015-ci il 20 oktyabr tarixli 1380-IVQ nömrəli Qanunu ilə 2016-cı il üçün ehtiyac meyarının həddi 105 manat məbləğində müəyyən edilmişdir.

2016-cı ilin dekabrın 1-i vəziyyətinə ölkə iqtisadiyyatında muzdla çalışan işçilərin sayı 1514,4 min nəfər olmuş, onlardan 889,5 min nəfəri iqtisadiyyatın dövlət sektorunda, 624,9 min nəfəri isə qeyri-dövlət sektorunda fəaliyyət göstərmişdir.

Əmək müqaviləsi üzrə elektron informasiya sisteminin məlumatına əsasən 2017-ci ilin 1 yanvar tarixinə muzdla işləyənlərin sayı 2016-cı ilin 1 yanvarına nisbətən 15,4 min nəfər artaraq 1265,3 min nəfər (Naxçıvan MR və əmək müqavilələri kağız üzərində bağlananlar istisna olmaqla) təşkil etmişdir.

Il ərzində 403,8 min ədəd əmək müqaviləsi bağlanılmış, 388,4 min ədədinə isə xitam verilmişdir. 2016-cı ildə iqtisadiyyatın ən çox tikinti və ticarət sektorlarında əmək müqaviləsinə xitam verilmə halı qeydiyyata alınmışdır. Belə ki, tikinti sektorundan 62,7 min nəfərin, ticarət sektorunda 58,8 min nəfərin əmək müqaviləsinə xitam verilmişdir ki, bu da bütün xitam verilmiş əmək müqavilələrinin 31,2 faizini təşkil edir.

Xitam verilmiş əmək müqavilələrinin 4,6 faizi müəssisənin ləğvi və ştatların ixtisarı səbəbi ilə bağlı olmuşdur.

| 2016-cı il aylar | Xitam verilmiş əmək müqavilələrinin sayı, ədəd | Əmək Məcəlləsinin 70-ci maddəsinin a) və b) bəndlərinə əsasən xitam verilmiş əmək müqavilələrinin sayı, ədəd | Xitam verilmiş əmək müqavilələrinin sayında Əmək Məcəlləsinin 70-ci maddəsinin a) və b) bəndlərinə əsasən xitam verilmiş əmək müqavilələrinin xüsusi çəkisi, % |
|---|---|---|---|
| Yanvar | 34 328 | 3 183 | 9,3 |
| Fevral | 35 651 | 2 027 | 5,7 |
| Mart | 23 971 | 1 135 | 4,7 |
| Aprel | 32 165 | 1 850 | 5,8 |
| May | 27 062 | 1 052 | 3,9 |
| İyun | 29 292 | 814 | 2,8 |
| İyul | 29 595 | 847 | 2,9 |
| Avqust | 33 524 | 1 545 | 4,6 |

| | | | |
|---|---|---|---|
| Sentyabr | 35 590 | 1 227 | 3,4 |
| Oktyabr | 31 567 | 1 254 | 4,0 |
| Noyabr | 28 061 | 1 123 | 4,0 |
| Dekabr | 47 593 | 1 710 | 3,6 |
| **Cəmi** | **388 399** | **17 767** | **4,6** |

2016-cı ildə iqtisadiyyatın tikinti sektorundan 4660 nəfərin, maliyyə və sığorta sektorundan isə 2241 nəfərin əmək müqaviləsinə müəssisənin ləğvi və ştatların ixtisarı səbəbi ilə bağlı xitam verilmişdir.

2016-cı ilin yanvar-noyabr aylarında ölkə iqtisadiyyatında muzdla çalışan işçilərin orta aylıq nominal əmək haqqı əvvəlki ilin müvafiq dövrünə nisbətən 7,0 faiz artaraq 494,3 manat olmuşdur. İqtisadiyyatın mədənçıxarma sənayesi, maliyyə və sığorta fəaliyyəti, peşə, elmi və texniki fəaliyyət, tikinti, eləcə də informasiya və rabitə sahələrində orta aylıq nominal əmək haqqı daha yüksək olmuşdur.




Hesabat ili ərzində həyata keçirilən aktiv məşğulluq tədbirləri nəticəsində Dövlət Məşğulluq Xidməti orqanlarına 204283 nəfər müraciət etmiş, onlardan 56631 nəfəri münasib işlə təmin edilmiş, 1147 nəfəri haqqı ödənilən ictimai işlərə, 3352 nəfəri isə peşə hazırlığı kurslarına cəlb olunmuş, 11010 nəfərə işsiz statusu verilmiş, 11552 nəfərə işsizlik müavinəti təyin edilmişdir.

2016-cı ildə əvvəlki illə müqayisədə işlə bağlı müraciət edənlərin, işlə təmin olunanların, eləcə də işsiz statusu alanların və işsizlik müavinəti təyin olunanların sayında əhəmiyyətli artım müşahidə edilmişdir.

| Göstəricinin adı | 2015-ci il | 2016-cı il | nisbi müqayisə,% | mütləq müqayisə, nəfər |
|---|---|---|---|---|
| Müraciət edənlərin sayı | 59252 | 204283 | 344,8 | 145031 |
| Işsiz statusu alanların sayı | 3520 | 11010 | 312,8 | 7490 |
| Işsizlik müavinəti alanların sayı | 3844 | 11552 | 300,5 | 7708 |
| Işə düzələnlərin sayı | 28936 | 56631 | 195,7 | 27695 |
| Müxtəlif səbəbdən qeydiyyatdan çıxanların sayı | 22418 | 39747 | 177,3 | 17329 |
| o cümlədən: | | | | |
| işsiz statusu olanlar | 472 | 6915 | 1465,0 | 6443 |
| Dövrün sonuna qeydiyyatda olan işaxtaranların sayı | 119119 | 227024 | 190,6 | 107905 |
| o cümlədən: | | | | |
| işsiz statusu olanlar | 28877 | 32972 | 114,2 | 4095 |
| İşsizlik müavinəti alanlar (ödəmələrin sayı) | 23319 | 68177 | 292,4 | 44858 |
| o cümlədən: | | | | |
| minimum məbləğdə alanların sayı (ödəmələrin sayı) | 5472 | 18846 | 344,4 | 13374 |
| Peşə kurslarına cəlb olunanların sayı | 4147 | 3352 | 80,8 | -795 |
| o cümlədən: | | | | |
| işsiz statusu olanlar | 2 | 6 | 300,0 | 4 |
| Peşəni başa çatdıranların sayı | 3738 | 3570 | 95,5 | -168 |
| onlardan: | | | | |
| işə düzələnlərin sayı | 1583 | 1223 | 77,3 | -360 |
| Ictimai işə cəlb olunanların sayı | 1626 | 1147 | 70,5 | -479 |
| o cümlədən: | | | | |
| işsiz statusu olanlar | 41 | 0 | 0,0 | -41 |

Pərakəndə işçi qüvvəsinin daha səmərəli və etibarlı fəaliyyətini təmin etmək məqsədilə hesabat dövründə “Əmək Birjaları” tərəfindən 3093 nəfər işsiz vətəndaş, o cümlədən 1595 nəfər qadın, 1323 nəfər gənc, 107 nəfər qaçqın və məcburi köçkün, 13 nəfər əlil müvəqqəti xarakterli işlərə göndərilmişdir.

2016-cı il ərzində respublikanın 54 şəhər və rayonunda keçirilmiş əmək yarmarkalarında 1633 müəssisə tərəfindən təqdim olunmuş 14823 boş (vakant) iş yerinə 4405 nəfər işsiz vətəndaş üçün göndəriş verilmiş, onlardan 3420 nəfəri (77,6 faizi) münasib işlə təmin edilmiş, 160 nəfəri peşə hazırlığı kurslarına, 141 nəfəri isə haqqı ödənilən ictimai işlərə cəlb olunmuşdur.

Bakı, Gəncə, Sumqayıt, Lənkəran şəhərlərində və Abşeron rayonunda məzun və tələbələrin işlə təmin olunmasına köməklik göstərilməsi, eləcə də məzunların və tələbələrin əmək bazarına inteqrasiyası məqsədi ilə “Karyerada ilk addım” devizi altında 10 ali təhsil ocağında keçirilmiş tədbirlərdə 370 müəssisə tərəfindən 1838 boş (vakant) iş yeri işaxtaranlara təqdim edilmişdir. Tədbirlər nəticəsində 215 nəfərə göndəriş verilmiş, onlardan da 74 nəfəri (34,4 faizi) münasib işlə təmin edilmiş, 3781 məzun və tələbənin şəxsi məlumatları müəssisələr tərəfindən qəbul edilmiş, 180 nəfər isə peşə hazırlığı və əlavə təhsil kurslarına cəlb edilmişdir.

2016-cı il ərzində Dövlət Məşğulluq Xidməti orqanları tərəfindən 32 peşə üzrə 175 qrup olmaqla peşə hazırlığı kursları təşkil edilmişdir. Bu kurslara əmək bazarının tələblərinə uyğun olaraq 3352 nəfər cəlb olunmuşdur ki, onlardan da 2398 nəfəri Bakı, Naxçıvan və Göyçay Regional Peşə Tədris Mərkəzlərində (1479 nəfər Bakı, 507 nəfər Göyçay və 413 nəfər Naxçıvan) hazırlanmışdır.

Hesabat ilində Dövlət Məşğulluq Xidmətinin yerli orqanlarına hesabat təqdim edən 13923 müəssisənin 11,5 faizi və ya 1600 müəssisə tərəfindən boş (vakant) iş yerləri haqqında məlumat verilmişdir.

2016-cı il ərzində işaxtaran və işsiz vətəndaşların işlə təmin olunmasında, əmək bazarının tənzimlənməsində işəgötürənlər tərəfindən təqdim olunan vakant iş yerləri haqqında məlumatlar öz müsbət rolunu oynamışdır. Qeyd olunan dövr üzrə Dövlət Məşğulluq Xidmətinin yerli orqanları vasitəsi ilə orta hesabla hər 100 vahid vakansiyaya 51 nəfər işlə təmin edilmişdir.

2016-cı ilin yanvarın 26-da “Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı”nın icrasının ikinci ilinin yekunlarına həsr olunmuş iclasda Azərbaycan Respublikası Prezidenti tərəfindən verilən tapşırığa müvafiq olaraq məşğulluq sahəsində dövlət şirkətləri ilə birgə fəaliyyət həyata keçirilmişdir. Dövlət şirkətləri tərəfindən qısa müddətdə Nazirliyin Məşğulluq Xidməti orqanlarına 18 minə yaxın yeni vakansiyalar barədə məlumatlar təqdim edilmiş və bu orqanlarda işaxtaran kimi qeydiyyata alınmış şəxslər müvafiq göndərişlər əsasında

həmin iş yerlərində işlə təmin olunmuşlar. Bundan əlavə, hesabat dövründə Nazirliyin Məşğulluq Xidməti orqanlarına təqdim edilmiş vakansiyalar üzrə 16,5 minə yaxın işaxtaran şəxs respublikanın regionlarında yerli icra hakimiyyətləri tərəfindən həyata keçirilən abadlıq və təmir-tikinti işlərinə cəlb edilmiş və bu şəxslərlə müvafiq əmək müqavilələri bağlanılmışdır. Müqavilələrin 25,3 faizi mülki-hüquqi xarakter daşımış, 74,7 faizi isə əmək müqaviləsi formasında rəsmiləşdirilmişdir. Bağlanmış əmək müqavilələrinin 83,9 faizi müddətli əmək müqaviləsi olmuşdur.

Görülən tədbirlər nəticəsində 2016-cı ilin mart-iyun aylarından işçi qüvvəsinin hərəkətində müsbət saldo yaranmış, yəni bağlanan əmək müqavilələrinin sayı xitam verilmiş əmək müqavilələrinin sayından artıq olmuşdur. Lakin ilin ortalarında yaranmış nisbi sabitlik ilin ikinci yarısında dəyişməyə başlamışdır. 2016-cı ilin iyul ayından başlayaraq işçi qüvvəsinin hərəkətində mənfi saldo müşahidə olunmuşdur. Bunun da başlıca səbəbi bağlanmış əmək müqavilələrinin qısa müddətli xarakter daşıması idi. Belə ki, sosial məsuliyyətin bölüşdürülməsi çərçivəsində bağlanmış müddətli əmək müqavilələrinin 58,7 faizi 6 ayadək, 41,0 faizi 6 aydan 1 ilədək, 0,3 faizi isə 1 ildən yuxarı olmuşdur. Sistemin məlumatlarına əsasən 2016-cı ilin may ayının 27-i ilə müqayisədə 01 yanvar 2017-ci tarixinə dövlət şirkətlərinin 2016-cı ilin fevral-mart aylarında işsiz vətəndaşlarla bağladıqları müvəqqəti əmək müqavilələrinin 13,4 min ədədinə xitam verilmişdir.

Mövcud vəziyyət ilin əvvəlində sosial məsuliyyətin bölüşdürülməsi çərçivəsində dövlət şirkətləri ilə həyata keçirilmiş birgə fəaliyyətin davam etdirilməsi zərurətini ortaya qoymuşdur. Bunu nəzərə alaraq**,** 2016-cı ilin dekabr ayının sonunda Azərbaycan Respublikası Prezidenti tərəfindən verilən tapşırığa müvafiq olaraq məşğulluq sahəsində sosial məsuliyyətin bölgüsü çərçivəsində dövlət şirkətləri ilə birgə fəaliyyətin növbəti ildə davam etdirilməsi qərara alınmışdır. Hazırda bu istiqamətdə müvafiq tədbirlər həyata keçirilməkdədir.

2016-cı ilin yekunlarına əsasən 117244 nəfər vətəndaşa, əsasən orta ümumtəhsil məktəblərinin yuxarı sinif şagirdlərinə peşəyönümü məsləhətlər və əmək bazarında işəgötürənlərin bugünkü tələbləri haqqında geniş və ətraflı məlumatlar verilmiş, məşğulluqla əlaqədar gəncləri maraqlandıran mövzular və problemlər ətrafında müzakirələr aparılmışdır.

Həyata keçirilən yeniliklərdən biri də valideynlərə övladlarının şüurlu yaradıcı əməyə hazırlanmasında, onların düzgün ixtisas və peşə seçiminə istiqamətləndirilməsində məsləhətlərin verilməsindən ibarət olmuşdur. Bu məqsədlə respublikanın şəhər və rayonlarının aparıcı ümumtəhsil orta məktəblərində, o cümlədən Bakı şəhəri üzrə 279 ümumtəhsil orta məktəbində pedaqoji kadrların, buraxılış sinif şagirdlərinin və onların valideynlərinin iştirakı ilə peşəyönümü tədbirləri keçirilmiş, keçirilən tədbirlər respublika və yerli kütləvi informasiya vasitələrində geniş işıqlandırılmışdır.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən mövcud demoqrafik meyllərə və inkişaf perspektivlərinə, ölkənin iqtisadi prioritetlərinə əsaslanaraq səmərəli məşğulluğun təmin edilməsinə yönəldilmiş institusional islahatları müəyyən etməklə uzunmüddətli dövlət məşğulluq siyasətinin formalaşdırılması məqsədilə Azərbaycan Respublikasının Məşğulluq Konsepsiyası layihəsinin hazırlanması barədə verilmiş tapşırığın icrası olaraq, Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyində "Azərbaycan Respublikasının Məşğulluq Strategiyası (2017-2030-cu illər)" layihəsinin hazırlanması məqsədilə aidiyyəti dövlət orqanlarının, Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının, Azərbaycan Respublikasının Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının və qeyri-hökumət təşkilatlarının nümayəndələrindən ibarət İşçi qrupu yaradılmış, 21 yanvar və 13 oktyabr 2016-cı il tarixlərdə İşçi qrupunun iclasları keçirilmişdir.

Qeyd olunan əməkdaşlıq çərçivəsində 26 yanvar 2016-cı il tarixində Dünya Bankının ekspertləri tərəfindən "Azərbaycanda makroiqtisadi siyasət və mövcud trendlər" və "2006-2015-ci illərdə Azərbaycanın əmək bazarında mövcud vəziyyət: meyllər və əsas çağırışlar" mövzularında təqdimatlar keçirilmiş, müvafiq statistik və proqnoz göstəricilərinin təhlili əsasında dövlət məşğulluq siyasətinin gələcək illərdə prioritet istiqamətlərinin müəyyən edilməsinə dair təkliflər verilmişdir.

"Azərbaycan Respublikasının Məşğulluq Strategiyası (2017-2030-cu illər)" layihəsi aidiyyəti üzrə razılaşdırılmış və Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim olunacaqdır.

2016-cı ildə qeyri-neft sektorunun və sahibkarlıq fəaliyyətinin inkişafı nəticəsində yeni iş yerlərinin yaradılması, o cümlədən "Əhalinin özünüməşğulluğunun təmin olunması sahəsində əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 7 aprel 2016-cı il tarixli Sərəncamı ilə əhalinin özünüməşğulluğuna kömək göstərilməsi məqsədilə Azərbaycan Respublikasının 2016-cı il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondundan Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə 6,0 milyon manat vəsait ayrılmışdır.

Qeyd edilən Sərəncamın icrası ilə bağlı həyata keçirilən tədbirlərin səmərəliliyini təmin etmək məqsədilə prosesin icra mexanizmini tənzimləyən "İşaxtaran və işsiz vətəndaşların özünüməşğulluğunun təşkili Tələbləri" təsdiq edilmişdir.

Bu prosesdə iştirak edəcək ailələrin sayı respublikanın şəhər və rayonlarında ev təsərrüfatlarının xüsusi çəkisi nəzərə alınmaqla müəyyən edilmiş və iştirakçılar əsasən şəhər (rayon) məşğulluq mərkəzlərində işsiz və işaxtaran kimi qeydiyyata alınmış şəxslər arasından seçilmişdir.

2016-cı ilin 17 avqust tarixindən iştirakçıların təliminə başlanılmışdır. Respublikanın 76 şəhər və rayonu üzrə 130 qrupda 1767 nəfər iştirakçı 2

aylıq təlimlərə cəlb edilmiş və təlimlərin sonunda onlar öz biznes planlarını hazırlamışlar.

Uğurlu hesab olunan biznes planların 83,6 faizi kənd təsərrüfatı (qoyunçuluq, iribuynuzlu südlük heyvandarlıq, iribuynuzlu ətlik heyvandarlıq, quşçuluq, istixanaların qurulması, inkubatorların yaradılması və s.), 9,4 faizi xidmət (gözəllik salonları, bərbərxanalar, kompüter salonları, dərzi, avtoyuma sexi, avtomobil təmiri və s.), 6,6 faizi istehsal (un məmulatları, tamet-plitə, dəmir darvaza, at yəhəri, plastik qapı və pəncərə və s.) və 0,4 faizi ticarət (ərzaq mallarının satışı) sahəsini əhatə edir.

Məşğul, işsiz və işaxtaran vətəndaşların sosial müdafiəsinin gücləndirilməsi məqsədilə beynəlxalq təcrübəyə əsaslanaraq Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən "İşsizlikdən sığorta haqqında" Azərbaycan Respublikası Qanununun layihəsi hazırlanmışdır. Layihə aidiyyəti qurumların (Azərbaycan Respublikasının Maliyyə Nazirliyi, Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi, Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi, Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyası, Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası) rəy və təklifləri nəzərə alınaraq təkmilləşdirilmiş və baxılmaq üçün Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim edilmişdir.

BMT İnkişaf Proqramı ilə nazirlik arasında son illərdə icra olunan "Azərbaycanda İnnovasiyanın və Məşğulluğun İnkişafı" layihəsi əsasında gənclərin əmək bazarına inteqrasiyasında SYSLAB (Yenilik və Məşğulluq üzrə Sistem Laboratoriyası) metodologiyasının tətbiqi 2016-cı ildə də davam etdirilmişdir. Hesabat ilində Masallı rayonunda SYSLAB Təlim-Tədris Mərkəzinin açılışı olmuşdur. Ümumi olaraq 2016-cı ildə Bakı, Sumqayıt, Gəncə və Masallıda 500 nəfər gənc həmin mərkəzlərdə təlim kurslarına cəlb edilmişdir. Onlar bu təlimlər zamanı müasir üsullar, innovativ metodlar əsasında iş axtarışı bacarıqlarına yiyələnmişlər. Həmin gənclərdən 80 faizə yaxını bu bacarıqlardan faydalanaraq, ayrı-ayrı müəssisələrdə münasib işlərlə təmin olunmuşlar.

2016-cı ilin may ayında BƏT-in beynəlxalq səviyyəli konfransı çərçivəsində təşkil olunan müsabiqədə ölkəmiz gənclərin məşğulluğunun dəstəklənməsi sahəsində MDB üzrə ən yaxşı iş təcrübəsi ilə seçilərək birinci yerə layiq görülmüş və bununla bağlı, nümayəndə heyətimizə BƏT-in müvafiq diplomu təqdim olunmuşdur.

Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondunun gəlir və xərclərinin icrası, sığorta-pensiya sistemində beynəlxalq standartların tətbiqi, əmək pensiyaçılarının və əhalinin aztəminatlı təbəqələrinin sosial müdafiəsinin gücləndirilməsi tədbirləri 2016-cı ildə də davam etdirilmişdir.

2016-cı ildə Nazirlik yanında Dövlət Sosial Müdafiə Fondunun gəlirləri 2015-ci ilə nisbətən 261,1 milyon manat və ya 8,96 faiz artaraq 3175,7 milyon manata yüksəlmişdir.




Hesabat dövrü ərzində məcburi dövlət sosial sığorta haqları üzrə daxilolmalar ötən illə müqayisədə 6,4 faiz və ya 115,4 milyon manat artaraq 1920,5 milyon manat təşkil etmişdir.

Ölkədəki iqtisadi inkişafın əyani təsdiqi kimi qeyri-büdcə sektoru üzrə sosial sığorta daxilolmalarındakı artım tendensiyası hesabat ilində də davam etmişdir. Qeyri-büdcə sektorundan daxilolmalar sosial sığorta haqlarının 63,5 faizini və ya 1220,5 milyon manatını təşkil etmişdir ki, bu da əvvəlki illə müqayisədə 5,8 faiz və ya 66,6 milyon manat çoxdur.



Hesabat ilində Fondun xərcləri 3194,8 milyon manat təşkil etmiş və bunun da 3135,6 milyon manatı və yaxud 98,1 faizi əhaliyə ödənişlərə yönəldilmişdir.




Əmək pensiyaları ilə bağlı xərclər 3043,7 milyon manat, məcburi dövlət sosial sığorta haqları hesabına ödənilən müavinət xərcləri isə 91,8 milyon manat təşkil etmişdir. İlin əvvəlinə büdcə qalığı və Fondun daxilolmalarının artım səviyyəsi hər ay pensiya və müavinətlərin qrafikdən əvvəl maliyyələşdirilməsinə imkan vermişdir.

Vətəndaşların sosial müdafiəsinin gücləndirilməsi məqsədilə Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamına əsasən 2016-ci ilin yanvarın 1-dən bütün növ əmək pensiyalarının sığorta hissəsinə artım tətbiq olunmuşdur. Əmək pensiyalarının sığorta hissəsinin əvvəlki ilin istehlak qiymətləri indeksinə uyğun, yəni 4 faiz indeksləşdirilərək artırılmasına il ərzində 36,3 milyon manat vəsait xərclənmişdir.

Həmçinin yaşa görə əmək pensiyasının baza hissəsinin məbləğinin 2016-cı ilin fevralın 1-dən 10 faiz artırılaraq 110 manata çatdırılması ilə bağlı Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamı 1 milyon 223 min pensiyaçıya şamil olunmuş, bu məqsədə hesabat ilində 139,7 milyon manat vəsait xərclənmişdir. Bundan əlavə hesabat dövründə bəzi kateqoriya hərbi qulluqçuların vəzifə maaşlarında baş vermiş artımlarla bağlı həmin kateqoriyadan olan pensiyaçıların pensiyaları orta hesabla 34,1 manat artmışdır.

Nəticədə, əmək pensiyalarının orta aylıq məbləği 2016-cı ilin əvvəlinə nisbətən 7,8 faiz artaraq 191,5 manat olmuş, o cümlədən yaşa görə əmək pensiyasının orta aylıq məbləği 213,0 manat təşkil etmişdir.

**Orta aylıq əmək pensiyasının və əmək pensiyasının baza hissəsinin (minimum pensiyanın) aylıq məbləği (ilin sonuna)**




Ölkə üzrə əmək pensiyaçılarının sayı 1 yanvar 2017-ci il tarixinə 16,1 min nəfər və ya 1,24 faiz artaraq (o cümlədən yaşa görə 0,4 faiz, ailə başçısını itirməyə görə 3,9 faiz, əlilliyə görə 2,06 faiz artmışdır) 1316 min nəfər təşkil etmişdir.

Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamına əsasən uşağa qulluğa görə qismən ödənişli sosial məzuniyyətdə olanlara verilən aylıq müavinətin məbləği 2016-cı il fevralın 1-dən 10 manat artırılmışdır. Bu artımın maliyyələşdirilməsi üçün 2016-cı il ərzində 1,1 milyon manat əlavə vəsait yönəldilmişdir.

Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamına əsasən 2016-cı il fevralın 1-dən uşağın anadan olmasına görə və dəfn üçün müavinətlərin məbləğləri 10 faiz artırılmışdır ki, bu müavinətlərin maliyyələşdirilməsi üçün 2016-cı il ərzində 1,3 milyon manat əlavə vəsait sərf olunmuşdur.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin müvafiq qərarına əsasən işsizlik müavinətinin minimum məbləği 20 manat artırılaraq 75 manata çatdırılmışdır. 2016-cı il ərzində bu müavinətin maliyyələşdirilməsi üçün 1,0 milyon manat əlavə vəsait yönəldilmişdir.

Fərdi uçot sistemində qeydiyyata alınan sığortaolunanların sayı 2017-ci ilin 1 yanvar tarixinə ötən ilin əvvəlinə nisbətən 191,8 min nəfər artaraq 3 371 ,9 min nəfər təşkil etmiş, eyni zamanda bu sistemdə uçotda olan əcnəbi vətəndaşların sayı 33, 9 min nəfərə çatmışdır.

2016-cı ildə respublika əhalisinin 5 faizinə və ya 487,9 min nəfərə aylıq və birdəfəlik sosial müavinət təyin olunub ödənilmişdir. Sosial müavinət alanların 368,9 min nəfəri və ya 75,6 faizi aylıq, 119,0 min nəfəri və ya 24,4 faizi isə birdəfəlik xarakter daşıyır. Bundan əlavə 57,7 min nəfərə Azərbaycan Respublikası Prezidentinin müxtəlif Fərman və Sərəncamlarına əsasən Azərbaycan Respublikası Prezidentinin təqaüdləri təyin olunaraq ödənilmişdir.

2016-cı ildə bu məqsədlər üçün 339,1 milyon vəsait xərclənmişdir ki, bu da 2015-ci illə müqayisədə 35,2 milyon manat və ya 11,6 faiz çoxdur.

Sosial müavinət və təqaüdlərin orta aylıq məbləği 2016-cı ilin əvvəlinə nisbətən 10 faiz artmışdır. Nəticədə, sosial müavinətlərin orta aylıq məbləği 50,7 manatdan 56,4 manata, Azərbaycan Respublikası Prezidentinin təqaüdlərinin məbləği isə 120,9 manatdan 129,5 manata çatdırılmışdır.

2016-cı ilin fevral ayından etibarən aztəminatlı ailələrə ünvanlı dövlət sosial yardımının təyin olunması Azərbaycan Respublikası Nazirlər Kabinetinin 5 fevral 2016-cı il tarixli 37 nömrəli qərarı ilə təsdiq edilmiş "Ünvanlı dövlət sosial yardımının alınması üçün müraciət edilməsi, onun təyin olunması, verilməsi və verilməsindən imtina edilməsi" Qaydalarına əsasən Vahid Elektron Müraciət və Təyinat Alt Sistemi (VEMTAS) tərəfindən avtomatlaşdırılmış qaydada həyata keçirilmiş və bu ünvanlı dövlət sosial yardımının təyin olunmasında neqativ halların aradan qaldırılmasına imkan yaratmışdır.

2016-cı ildə orta hesabla 163,3 min ailə (684,2 min nəfər ailə üzvü) ünvanlı dövlət sosial yardımı ilə təmin olunmuşdur ki, bu da 2015-ci illə müqayisədə 58,3 min ailə və ya 55,5 faiz çoxdur. 2016-cı il ərzində bu məqsədlərə 237 milyon manat xərclənmişdir. 2016-cı ilin dekabrında əhalinin aztəminatlı hissəsinə 19,7 milyon manat ünvanlı sosial yardım ödənilmişdir ki, bu da ötən ilin əvvəlinə nisbətən 3,6 milyon manat və ya 22,4 faiz çoxdur.

Hesabat ili ərzində ünvanlı dövlət sosial yardımının bir ailəyə düşən orta aylıq məbləği 150,68 manat (ailə üzvünə 37,39 manat) təşkil etmişdir.

Ünvanlı dövlət sosial yardımının 1 ailəyə düşən məbləğinin dinamikası, illər üzrə manatla




Hesabat dövründə Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin və konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar əlil olmuş şəxslərdən və şəhid ailələrindən olan 288 nəfər, o cümlədən 118 nəfər mənzillə, 170 nəfər isə fərdi evlə təmin olunmuşlar. Həmçinin il ərzində 140 nəfər imtiyazlı şəxs pulsuz avtomobil verilmişdir.

2016-cı il ərzində Dövlət Sosial Müdafiə Fondunun tabeliyində olan sosial xidmət müəssisələrində ümumilikdə 1085 nəfər tam dövlət təminatında olmuşdur.

Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondunun nəzdində olan “Məzun evi” Sosial Müəssisəsində 120 nəfər valideyn himayəsindən məhrum olmuş məzun yaşayır. 2016-cı ildə “Məzun evi” Sosial Müəssisəsinin 125 nəfərlik ikinci binası istifadəyə verilmişdir.

2016-cı ildə 350 nəfər sağlamlıq imkanları məhdud gənc müxtəlif peşə kurslarına cəlb olunmuşdur. 1 saylı Sağlamlıq imkanları məhdud gənclərin peşə-reabilitasiya mərkəzində hazırda 113 nəfər kurs keçməkdədir.

Hesabat ilində yetkinlik yaşına çatmamış görmə imkanı məhdud şəxslər üçün sosial reabilitasiya mərkəzi, 18 yaşdan yuxarı şəxslər üçün sosial sığınacaq və yetkinlik yaşına çatmayanlar üçün sosial sığınacaq və reabilitasiya mərkəzi istifadəyə verilmişdir.

Hesabat dövründə 1237 nəfər sosial işçi tərəfindən 11590 nəfər şəxsə evdə sosial məişət xidməti göstərilmişdir.

Azərbaycan Respublikasında insan alverinə qarşı mübarizəyə dair 2014-2018-ci illər üçün Milli Fəaliyyət Planının müvafiq bəndlərinin icrası məqsədilə təhsil və təlim-tərbiyə müəssisələrində uşaqların insan alveri və uşaq əməyinin istismarı ilə bağlı təhlükələrdən müdafiəsi istiqamətində maarifləndirmə tədbirləri həyata keçirilmişdir. Daxili İşlər Nazirliynin İnsan Alverinə Qarşı Mübarizə Baş idarəsi tərəfindən yönləndirilmiş 63 nəfər insan alveri qurbanı və müxtəlif qeyri-hökumət təşkilatları tərəfindən

yönləndirilmiş və fərdi olaraq müraciət etmiş 30 nəfər insan alverinin potensial qurbanına (sosial, hüquqi, tibbi, psixoloji və digər) yardımlar göstərilmişdir.

Sağlamlıq imkanları məhdud uşaqlara sosial xidmətlərin göstərilməsi üçün Nazirlik tərəfindən prioritet istiqamətlər müəyyən edilmiş və həmin xidmətlərin ixtisaslaşdırılmış qeyri-hökumət təşkilatları tərəfindən icra edilməsi məqsədi ilə sosial sifarişlər elan edilmişdir. 2016-cı ildə 25 qeyri-hökumət təşkilatı tərəfindən 37 layihə üzrə sosial sifarişlər icra olunmuş və bu layihələr 2046 nəfər ehtiyacı olan uşağı əhatə etmişdir.

20 Yanvar faciəsinin iyirmi beşinci ildönümü ilə əlaqədar olaraq, 107 nəfər 20 Yanvar şəhid ailəsinin və 312 nəfər 20 Yanvar əlilinin hər birinə 50 manat məbləğində birdəfəlik maddi yardımın verilməsi təmin edilmişdir.

Hesabat dövründə Çernobıl AES-də baş vermiş qəzanın 30-cu ildönümü ilə əlaqədar həmin qəzanın nəticələrinin aradan qaldırılmasında iştirak edərək əlil olmuş 500 nəfər şəxsin hər birinə 50 manat məbləğində birdəfəlik maddi yardım verilmişdir.

Əlillərin asudə vaxtının təşkili məqsədi ilə 1015 nəfər əlilin Lənkəran və Şəki rayonlarında yerləşən istirahət sağlamlıq mərkəzlərinə göndərilməsi təmin edilmişdir.

3 dekabr-Beynəlxalq əlillər günü münasibətilə Dövlət Sosial Müdafiə Fondunun bütün şəhər və rayon şöbələrində tədbirlər keçirilərək əlil ictimai təşkilatların və yerli özünüidarəetmə orqanlarının iştirakı ilə sosial müdafiəyə daha çox ehtiyacı olan 3667 əlilin hər birinə 30 manat məbləğində birdəfəlik maddi yardım verilmişdir.

Əlilliyi olan şəxslərə və sağlamlıq imkanları məhdud uşaqlara diqqət və qayğının artırılması, onların istedad və qabiliyyətlərinin aşkara çıxarılması və cəmiyyətə inteqrasiya olunması məqsədi ilə əlillərin VII Ümumrespublika bədii yaradıcılıq baxış-müsabiqəsi keçirilmişdir. Yarışlarda respublikanın ayrı-ayrı bölgələrində yaşayan 441 nəfər əlilliyi olan şəxs və sağlamlıq imkanları məhdud uşaq muğam, mahnı, rəqs, instrumental ifaçılıq, bəstəkarlıq, poeziya, bədii qiraət sahəsində öz istedad və qabiliyyətlərini nümayiş etdirmiş və münsiflər heyətinin qərarına əsasən 136 nəfər əlil şəxs və sağlamlıq imkanları məhdud uşaq final turunda iştirak etmək hüququ qazanmışdır. Nazirliyin müvafiq əmri ilə final turunun qalibləri mükafatlandırılımışlar.

2016-cı ildə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondunun rayon (şəhər) şöbələri tərəfindən müxtəlif kateqoriyalardan olan imtiyazlı şəxslərə 5707 ədəd sanator-kurort putyovkası paylanılmışdır.

Nazirliyin “Əlillərin tibbi reabilitasiya və sosial-məişət problemlərinin həllinə köməklik göstərən Komissiyası”nın qərarı əsasında sosial müdafiəyə daha çox ehtiyacı olan 1135 nəfər əlilin sosial-məişət problemlərinin həll edilməsinə və 21 nəfər əlilin respublika daxilində

müalicə olunmasına köməklik göstərilməsi məqsədilə birdəfəlik maddi yardımlar ödənilmişdir.

Səhiyyə Nazirliyinin "Vətəndaşların respublikadan kənar müalicəyə göndərilməsi məsələləri üzrə Komissiyası"nın müvafiq rəyi əsasında 70 nəfər əlilliyi olan şəxs, 48 nəfər sağlamlıq imkanları məhdud uşaq Türkiyə Respublikasının Dənizli bölgəsində Nobel Tibb Mərkəzində, 10 nəfər sağlamlıq imkanları məhdud uşaq isə Gürcüstan Respublikasında Sanni reabilitasiya mərkəzində müalicəyə göndərilmişdir.

**Tibbi-sosial ekspert komissiyalarına müraciət edənlərin və ilkin əlillik təyin edilənlərin sayı (nəfərlə)**




2016-cı ildə 52165 (2015-ci ildə 35548 nəfər) nəfər səhiyyə müəssisələrinin göndərişi ilə ilkin əlillik müəyyən edilməsi məqsədi ilə tibbi-sosial ekspert komissiyalarına müraciət etmiş və bu şəxslərdən 31769 nəfəri və ya 60,9 faizi (2015-ci ildə 27023 nəfər və ya 76,0 faizi) əlil hesab edilmişdir. Respublika üzrə ilkin əlil hesab edilənlərin 81,8 faizi və ya 25988 (2015-ci ildə 21514 nəfər) nəfəri ağır dərəcəli əlil olmuşdur. Hesabat dövründə 16733 (2015-ci ildə 177725) nəfər şəxs təkrar müayinə edilmiş və bunlardan 16401 nəfəri (2015-ci ildə - 172468 nəfər) əlil hesab edilmişdir.

2016-cı ildə 11892 nəfər 18 yaşınadək şəxs (2015-ci ildə 30072 nəfər) sağlamlıq imkanları məhdud uşaq hesab edilmişdir. Onların 85,1 faizi və 10125 nəfəri (2015-ci ildə 26,3 faizi və ya 7911 nəfəri) ilkin, 14,9 faizi və ya 1767 nəfəri (2015-ci ildə 24,8 faizi və ya 22161 nəfəri) isə təkrar sağlamlıq imkanları məhdud uşaq hesab edilmişdir.

2016-cı ildə müvafiq nazirliklərin rəy və təklifləri nəzərə alınmaqla Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən yenidən işlənmiş "Əlilliyi olan şəxslərin hüquqları haqqında" Azərbaycan Respublikasının Qanun layihəsi Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim edilmişdir.

2016-cı ildə Azərbaycan Respublikasında vətəndaşların əlilliyinin və sağlamlıq imkanlarının məhdudluğunun qiymətləndirilməsi sahəsində şəffaflığın artırılması və müasir informasiya texnologiyalarının tətbiqinin genişləndirilməsi, habelə əhaliyə göstərilən tibbi-sosial ekspertiza və reabilitasiya xidmətlərinin keyfiyyətinin yüksəldilməsi məqsədi ilə ciddi islahat tədbirləri həyata keçirilmişdir.

Əlillərə tibbi-sosial ekspertiza xidmətinin yaxşılaşdırılması məqsədi ilə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 11 noyabr tarixli 446 nömrəli qərarı ilə ”Tibbi-sosial ekspert komissiyaları haqqında Əsasnamə”yə müvafiq dəyişikliklər edilmiş və tibbi-sosial ekspertiza və reabilitasiya alt sistemindən (TSERAS) tam istifadə edilməklə, əlilliyin qiymətləndirilməsinin məmur-vətəndaş təmasları olmadan, şəffaf şəkildə yerinə yetirilməsinə başlanılmışdır.

Bununla da əlilliyin təyini üçün tibbi-sosial ekspert komissiyaları tərəfindən vətəndaşların müayinəsi proseduru tamamilə aradan qaldırılmışdır. Belə ki, əlilliyin qiymətləndirilməsi üçün göndərişin rəsmiləşdirilməsi barədə Səhiyyə Nazirliyindən alınan məlumat real vaxt rejimində göndərişlərin reyestrinə daxil edilərək TSERAS-a ötürülür. Sonrakı mərhələdə göndərişi verən səhiyyə müəssisəsinin, onu təsdiq edən şəxslərin, əlillik vəziyyəti qiymətləndirilməli olan şəxsin kimliyinə dair məlumatlar adsızlaşdırılır, şifrə verilir və bundan sonra əlillik vəziyyətinin qiymətləndirilməsi üçün həmin göndəriş elektron şəkildə hər hansı ekspert komissiyasına ötürülür. Göndərişin kimə aid olduğu, hansı səhiyyə müəssisəsi tərəfindən verildiyi bilinmədən, yalnız göndərişdə qeyd olunan xəstəlik vəziyyətinə uyğun olaraq, tam obyektiv şəkildə əlillik təyin olunub-olunmamasına dair qərar qəbul edilir.

Eyni zamanda, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 30 dekabr 2015-ci il tarixli, 413 nömrəli qərarı ilə təsdiq edilmiş “Əlilliyin və sağlamlıq imkanları məhdudluğunun müəyyən edilməsi meyarlarına dair Əsasnamə”nin 6.1.-ci və 6.2.-ci bəndlərinə uyğun olaraq əlillik dərəcəsi olan şəxslərin əlillik dərəcələri TSERAS tərəfindən şəxs müayinə edilmədən uzadılmışdır. Sistem tərəfindən avtomatlaşdırılmış şəkildə əlillik müddəti başa çatmamış birinci dərəcə əlilliyin müddətsiz, ikinci və üçüncü dərəcə əlilliyin isə müddətinin 5 ilə qədər uzadılması nəticəsində, hər il təkrar müayinə edilməli olan vətəndaşların bu prosedurdan keçməsinə ehtiyac qalmamışdır.

2016-cı il ərzində Dövlət Tibbi Sosial Ekspertiza və Reabilitasiya xidmətinin nəzdində fəaliyyət göstərən əlillərin bərpa mərkəzlərində və Protez Ortopedik Bərpa Mərkəzində 7991 nəfər (2015-ci ildə 6097 nəfər) əlil müalicə almışdır. 15296 nəfər əlilliyi olan şəxsə 32764 sayda protez ortopedik məmulat və reabilitasiya vasitələri, o cümlədən 1124 nəfərə əlilə arabası, 665 nəfər əlil isə eşitmə aparatı, 2434 ədəd yuxarı və aşağı ətraf protez və ortezləri, 4846 cüt ortopedik ayaqqabı, 23695 sayda müxtəlif reabilitasiya vasitələri təqdim edilmişdir. Bununla yanaşı Protez Ortopedik

Bərpa Mərkəzi tərəfindən respublikanın 41 rayonunda 1000 nəfərə yaxın şəxsə səyyar qaydada xidmət göstərilmişdir.

"Sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılması haqqında" Azərbaycan Respublikasının 20 oktyabr 2015-ci il tarixli 1410-IVQ nömrəli Qanununun tələblərinə uyğun olaraq 2016-cı il ərzində mülkiyyət və təşkilati-hüquqi formasından asılı olmayaraq, respublikamızda fəaliyyət göstərən işəgötürənlərdə əmək qanunvericiliyinin tələblərinə əməl olunmasına dövlət nəzarəti həyata keçirilməmişdir.

Bu müddət ərzində vətəndaşlardan daxil olmuş 9457 şikayət məzmunlu ərizə və müraciət, müəssisə, idarə və təşkilatlar tərəfindən göndərilmiş 1572 ədəd müxtəlif xarakterli sorğu araşdırılaraq cavablandırılmışdır.

Vətəndaşların müraciətlərinin araşdırılması zamanı 420 halda işəgötürənlər tərəfindən əmək qanunvericiliyinin tələblərinin pozulduğu aşkar edilmişdir. Həmin hüquq pozuntularının böyük əksəriyyətinin aradan qaldırılması təmin edilmiş, aradan qaldırılması vaxt tələb edən pozuntuların ləğvi üçün işəgötürənlərə göstərişlər verilmişdir.

Törədilmiş inzibati xətaya görə vəzifəli və hüquqi şəxs barədə inzibati qərar qəbul edilərək 937200 manat məbləğində inzibati cərimə tətbiq olunmuşdur ki, onun da 24,8 faizinin dövlət büdcəsinə ödənilməsi təmin edilmişdir. Görülmüş tədbirlər nəticəsində vətəndaşlara ödənilməsi təmin edilmiş gecikdirilmiş ödəmələrin ümumi məbləği 929,0 min manat olmuşdur.

Hesabat dövründə əmək müqavilələrinə qanunvericiliyin tələbləri pozulmaqla xitam verilmiş 30 nəfər öz əvvəlki işlərinə bərpa edilmiş, işçilər barəsində yol verilmiş çoxlu sayda qanun pozuntularının aradan qaldırılması təmin edilmişdir. İstehsalatla əlaqəli sayılmış 159 bədbəxt hadisənin təhqiqatı aparılmışdır ki, onlardan da 16 hadisə qrup halında baş vermişdir. Bu hadisələr nəticəsində 84 nəfər həyatını itirmiş, 165 nəfər isə müxtəlif dərəcəli bədən xəsarəti almışdır.

İqtisadi fəaliyyət sahələri üzrə istehsalatla bağlı bədbəxt hadisələrin daha çox tikinti sektorunda (24,2%), emal sənayesində (16,8%), nəqliyyat sektorunda (12,4%), mədənçıxarma sektorunda (14,9%), energetika sahəsində (6,8%) və digər sahələrdə (24,9%) baş verməsi müəyyən edilmişdir. Tikinti sektorunda 39 bədbəxt hadisə baş vermiş (onlardan qrup halında bir hadisə qeydə alınmışdır) və bu hadisələr zamanı ölənlərin sayı 10 nəfər, xəsarət alanların sayı isə 30 nəfər olmuşdur.

Bundan əlavə 2015-ci ilin dekabr ayında Xəzər dənizində baş vermiş təbii fəlakət nəticəsində SOCAR-ın Nəqliyyat İdarəsinin 5 saylı Texnoloji Nəqliyyat Departamentinin 3 nəfər işçisinin ölümü və SOCAR-ın Günəşli yatağının 10 saylı stasionar Dərin Dəniz Özülündə 30 nəfərin ölümü, 33 nəfərin itkin düşməsi və xeyli sayda işçinin xəsarət alması ilə nəticələnmiş bədbəxt hadisənin təhqiqatına 2015-ci ildə başlanılmış və bu təhqiqatlar 2016-cı ildə başa çatdırılmışdır.

2016-cı il ərzində Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin beynəlxalq əlaqələrinin dinamik inkişafı təmin edilmiş və bu sahədə yaranan yeni imkanlardan səmərəli şəkildə istifadə olunmuşdur.

2016-cı ilin fevral ayında Beynəlxalq Əmək Təşkilatının ekspertləri tərəfindən "Məşğulluq Siyasətinin Formalaşdırılması" adlı xüsusi hazırlanmış təlim kursu keçirilmişdir.

2016-cı ildə Cenevrə şəhərində Beynəlxalq Əmək Təşkilatının üzv-dövlətlərinin hökumət nümayəndələri və sosial tərəfdaşların iştirakı ilə keçirilmiş Beynəlxalq Əmək Konfransının 105-ci sessiyasında Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin nümayəndə heyəti iştirak etmişdir. Səfər çərçivəsində nümayəndə heyəti BƏT-in Baş direktoru Qay Rayder və digər yüksək səviyyəli rəsmiləri ilə ikitərəfli görüşlər keçirmişdir.

Azərbaycan Respublikası hökuməti və ölkədə fəaliyyət göstərən sosial tərəfdaşlar ilə Beynəlxalq Əmək Təşkilatı arasında ölkəmizlə BƏT arasında səmərəli əməkdaşlığın keyfiyyətcə yeni müstəvidə genişlənməsi üçün zəruri zəmin yaradacaq "Azərbaycan Respublikasının 2016-2020-ci illər üçün Layiqli Əmək üzrə Ölkə Proqramı" imzalanmışdır.

Dünyanın inkişaf etməkdə olan ölkələri arasında siyasi, iqtisadi, sosial, mədəni, ekoloji və texniki sahələrdə əməkdaşlığın çərçivəsini müəyyən edən və BMT tərəfindən texniki əməkdaşlığın əsas vasitəsi kimi qəbul olunmuş Cənub-Cənub Əməkdaşlığı çərçivəsində ölkəmizdə əmək münasibətləri, əhalinin sosial müdafiəsi, tibbi-sosial ekspertiza, pensiya təminatı və s. sahələrdə əldə olunmuş nailiyyətlər barədə məlumatlar qabaqcıl təcrübə kimi BMT-nin "Ərəb ölkələri, Avropa və MDB regionlarında Cənub-Cənub Əməkdaşlığı çərçivəsində Əməkdaşlıq Mexanizmləri və Həllər" adlı portalında yerləşdirilmişdir.

Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və BMT-nin Uşaq Fondu arasında 2016-2020-ci illərə dair Əməkdaşlıq Proqramı çərçivəsində "2016-2017-ci illər üçün Uşaq Müdafiəsi və Sosial Müdafiəyə dair Dövri Fəaliyyət Planı" imzalanmışdır.

2016-cı ilin 19-21 iyun tarixlərində Azərbaycan Respublikasının əmək və əhalinin sosial müdafiəsi nazirinin rəhbərlik etdiyi nümayəndə heyətinin Tacikistan Respublikasına səfəri baş tutmuşdur.

Eləcə də, Nazirliyinin fəaliyyət istiqamətləri üzrə aparılımış sistem xarakterli islahatlar nəticəsində əldə olunmuş uğurlu təcrübə ilə bölüşmək məqsədilə 2016-cı ildə Rusiya Federasiyası Hökumətinin sədr müavininin, Tacikistan Respublikasının əmək, miqrasiya və əhalinin məşğulluğu nazirinin, Əfqanıstan İslam Respublikasının əmək, sosial işlər, şəhid və əlillər nazirinin müavininin rəhbərlik etdiyi nümayəndə heyətləri, Rusiya Federasiyasının Əmək və Məşğulluq Federal Xidmətinin, Rusiya Federasiyasının Sosial Sığorta Fondunun və Rusiya Federasiyasının Strateji Tədqiqatlar Agentliyininin nümayəndə heyətləri ilə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyində görüşlər keçirilmişdir.

2016-cı ildə "Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə İran İslam Respublikasının Kooperasiya, Əmək və Sosial Rifah Nazirliyi arasında Anlaşma Memorandumu", "Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə Macarıstanın Milli İqtisadiyyat Nazirliyi arasında Anlaşma Memorandumu", "Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə Tacikistan Respublikasının Əmək, Miqrasiya və Əhalinin Məşğulluğu Nazirliyi arasında əmək və əhalinin məşğulluğu sahəsində əməkdaşlıq haqqında Saziş", "Azərbaycan Respublikası Hökuməti və Belarus Respublikası Hökuməti arasında pensiya təminatı sahəsində əməkdaşlıq haqqında 21 noyabr 2013-cü il tarixli Sazişin tətbiqinə dair Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə Belarus Respublikasının Əmək və Sosial Müdafiə Nazirliyi arasında Saziş" imzalanmışdır.

Avropa Qonşuluq və Tərəfdaşlıq Aləti çərçivəsində benefisiarı Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi olan "Azərbaycan Respublikasında pensiya sisteminin islahatının həyata keçirilməsində Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə dəstək" adlı tvinninq layihəsi imzalanmışdır.

2016-cı ilin 1 dekabr tarixinə Dövlət Miqrasiya Xidməti tərəfindən rəy verilməsi üçün Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə 11271 müraciət daxil olmuşdur ki, onlardan 6259-u yeni, 5012-i isə ötən illər ərzində verilmiş iş icazələrin müddətlərinin uzadılması ilə bağlı olmuşdur. Daxil olmuş müraciətlərə baxılmış və ümumilikdə 4437 nəfər olmaqla 2495 nəfərə iş icazəsi verilməsi, 1942 nəfərin isə iş icazələrinin müddətlərinin uzadılması məqsədəuyğun hesab edilmişdir. 6834 əcnəbiyə iş icazəsi verilməsi məqsədəuyğun hesab edilməmişdir.

Hesabat dövründə "Azərbaycan Respublikası Nazirlər Kabineti, Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası və Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatlarının Milli Konfederasiyası arasında 2016-2017-ci illər üçün Baş Kollektiv Saziş"in layihəsi üzərində iş aparılmış və Azərbaycan Respublikasının Nazirlər Kabinetinin, Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının və Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatlarının Milli Konfederasiyasının 15 aprel 2016-cı il tarixli 154 nömrəli birgə qərarı ilə 2016-2017-ci illər üçün Baş Kollektiv Saziş təsdiq edilmişdir.

2016-2017-ci illər üçün Baş Kollektiv Sazişin 6.2.1-ci yarımbəndinə uyğun olaraq sosial partnyorların 30 sentyabr 2016-cı il tarixli birgə qərarı ilə Azərbaycan Respublikasında Sosial və İqtisadi Məsələlər üzrə Üçtərəfli Komissiya təsis edilmişdir. Ölkəmizdə Sosial və İqtisadi Məsələlər üzrə Üçtərəfli Komissiyanın yaradılması sosial-iqtisadi inkişafın təmin olunmasında, bir sıra vacib sosial-iqtisadi məsələlərin həllində sosial partnyorların fəaliyyətinin daha sıx formada əlaqələndirilməsinə, işçilərin və işəgötürənlərin hüquqlarının yüksək səviyyədə təmin olunmasında birgə və

səmərəli fəaliyyətin qurulmasına, bu sahədə sosial partnyorluğun təkmilləşməsinə xidmət edir.

2016-cı il ərzində Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən 17 normativ hüquqi aktın layihəsi hazırlanmış və onların qanunvericiliklə müəyyən edilmiş qaydada qəbul olunması istiqamətində tədbirlər həyata keçirilir.

2016-cı ildə Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyində Apellyasiya Şurası yaradılmış, Şuranın Əsasnaməsi təsdiq edilmiş, Apellyasiya Şurasının və katibliyinin tərkibi müəyyən olunmuşdur.

Azərbaycan Prezidenti cənab İlham Əliyevin tapşırıqlarına uyğun olaraq, 2016-cı ildə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən əmək və sosial müdafiə sisteminin elektron texnologiyaların tətbiqi şəraitində müasir infrastrukturunun qurulması, əhaliyə həmin sahələr üzrə göstərilən xidmətlərin elektronlaşdırılaraq şəffaflaşdırılması yönündə mühüm islahatlar aparılmışdır.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 24 noyabr tarixli 191 nömrəli qərarı ilə təsdiq edilmiş "Mərkəzi icra hakimiyyəti orqanları tərəfindən konkret sahələr üzrə elektron xidmətlər göstərilməsi Qaydaları"nın və "Elektron xidmət növlərinin Siyahısı"nda qeyd olunmuş "İstehsalatda baş verən bədbəxt hadisə barədə aidiyyəti dövlət strukturuna məlumatların verilməsi" elektron xidməti 2016-cı ilin 25 avqust tarixindən aktivləşdirilərək istifadəyə verilmişdir. "Elektron hökumət" portalı üzərindən təqdim olunan "İstehsalatda baş verən bədbəxt hadisə barədə aidiyyəti dövlət strukturuna məlumatların verilməsi" e-xidməti istehsalatda baş vermiş bədbəxt hadisələr barədə işəgötürənlər tərəfindən məlumat verilməsi prosesinin elektron qaydada həyata keçirilməsinə, bu sahədə işəgötürənlərin imkanlarının genişlənməsinə şərait yaradır.

"Əmək Müqaviləsi Bildirişi üzrə Elektron İnformasiya Sistemi"nin, "Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Alt Sistemi"nin,“Vahid Elektron Müraciət və Təyinat Alt Sistemi”nin, Pensiyaçılar üzrə İnformasiya sisteminin və Fərdi uçotun təşkili sistemlərinin təkmilləşdirilməsi istiqamətində davamlı tədbirlər aparılmışdır.

Bundan başqa, "Pensiya təyinatının tam avtomatlaşdırılması yolu ilə əməliyyatların vahid mərkəzdən aparılmasına keçidi təmin edən müvafiq proqram təminatı"nın, "Vahid Rüblük Hesabat Alt Sistemi"nin və "Sosial sığorta İştirakçılarının Qeydiyyatı Alt Sistemi"nin sınaqdan keçirilməsi və mümkün qədər qısa müddət ərzində tətbiqi məqsədilə Nazirlikdə işçi qruplar yaradılmış və müvafiq tədbirlər həyata keçirilir.

Ümumilikdə 2016-cı il ərzində əhali nazirliyin e-xidmətlərindən 6 549 994 dəfə faydalanmışdır. Azərbaycan Respublikası Rabitə və Yüksək Texnologiyalar Nazirliyi Məlumat Hesablama Mərkəzinin "Elektron hökumət" portalında təqdim olunan elektron xidmətlərdən istifadə üzrə növbəti statistik məlumatına əsasən, 2016-cı il ərzində portalda e-

xidmətlərindən ən çox istifadə olunan dövlət qurumu Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi olmuşdur.

Həmçinin müşahidələrə əsasən, sosial yönümlü elektron xidmətlərə marağın daha çox olduğu, il ərzində Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin "Əmək müqaviləsi bildirişlərinin qeydiyyata alınması və bu barədə işəgötürənə məlumatın verilməsi" xidmətindən 1 milyon 971 min 872 dəfə istifadə edildiyini qeyd etmək lazımdır. Bu müddət ərzində ikinci ən çox istifadə olunan elektron xidmət "Ünvanlı sosial yardımla bağlı müraciətin edilməsi" xidmətidir. 2016-cı il fevral ayının 22-də elektronlaşdırılaraq portala inteqrasiya edilən bu xidmətdən 1 milyon 835 min 235 dəfə istifadə edilib.

Nazirliyin "Elektron Hökumət" portalı üzərindən təqdim etdiyi "İş yerinə dair arayış" elektron xidməti də əhalinin ən çox istifadə etdiyi elektron xidmətlərdəndir. Ölkəmizin elektron arayış sistemində mühüm yer tutan bu e-xidmətə 2016-cı ildə 227 685 dəfə müraciət edilib.

Nazirlik tərəfindən əhaliyə göstərilən xidmətlərin digər mühüm istiqaməti Çağrı mərkəzi vasitəsilə əhaliyə göstərilən telefon məlumat xidmətidir. Nazirliyin Çağrı Mərkəzi vasitəsilə 2016-cı il ərzində 260 minə yaxın vətəndaş müraciəti cavablandırılmışdır. Nazirliyin Çağrı mərkəzi vasitəsilə vətəndaşlar əlillik müayinəsinin nəticəsi və sosial yardımın təyinatı üçün edilən müraciətə baxılmasının cari vəziyyəti barədə də məlumat əldə edə və yaşa görə əmək pensiyası hüququnu reallaşdıra bilirlər. Göstərilən dövr ərzində 1726 nəfərə çağrı mərkəzi vasitəsilə avtomatlaşdırılmış qaydada əmək pensiyası təyinatı həyata keçirilmişdir.

2016-cı ildə nazirliyə 65109 ədəd vətəndaş müraciəti daxil olmuş, aidiyyatı üzrə icraya verilmiş və qanunvericiliyə uyğun olaraq müraciətlərdə qaldırılan məsələlər araşdırılmış və müəyyən edilmiş müddətlərdə cavablandırılmışdır. Daxil olan vətəndaş müraciətləri üzrə statistik təhlillər aparılaraq müvafiq tədbirlər görülmüşdür.




İl ərzində Nazirliyin rəhbərliyi tərəfindən 151 dəfə vətəndaş qəbulu keçirilmiş və ümumilikdə 1212 nəfər vətəndaş qəbul edilmişdir.

“2016-cı ildə mərkəzi icra hakimiyyəti orqanları rəhbərlərinin şəhər və rayonlarda vətəndaşların qəbulu qrafiki”nə uyğun olaraq rəhbərlik tərəfindən 12 dəfə vətəndaşların qəbulu keçirilmiş, 720 nəfər vətəndaş qəbul edilmişdir. Qəbul zamanı nazirliyin fəaliyyət dairəsinə aid sahələrlə bağlı daxil olan şikayət xarakterli müraciətlər vətəndaşların və nazirlikdə yaradılan İctimai Şuranın üzvlərinin iştirakı ilə yerindəcə araşdırılmışdır.

Nazirliyin rəsmi facebook səhifəsi vasitəsilə vətəndaşların müraciətlərinin cavablandırılması işi təşkil olunmuş, cari ilin ötən dövrü ərzində ümumilikdə 2920 müraciət cavablandırılmışdır. Hazırda nazirliyin rəsmi facebook səhifəsini izləyənlərin sayı 42 minə yaxındır ki, bu da mərkəzi icra hakimiyyəti orqanları arasında ən yüksək göstəricilərdən biridir. Nazirliyin twitter hesabı da daim yenilənir. Nazirliyin KİV-də gedən xəbərlərinin videolarının yazılması, saytda və sosial şəbəkələrdə yayılması təşkil edilmişdir. Ümumilikdə nazirliyin Youtube kanalında il ərzində 140-a yaxın videosujet yerləşdirilmişdir.

Hesabat dövrü ərzində 400-ə yaxın press-reliz və məlumat hazırlanaraq mətbuatda yayılmış və həmin məlumatlar nazirliyin rəsmi internet səhifəsindəki «Xəbərlər» və «Press-relizlər» bölmələrində yerləşdirilmişdir. Nazirliyin rəsmi internet səhifəsindəki məlumatlar qeyd olunan dövr ərzində ingilis dilinə tərcümə edilmişdir və gündəlik yayımlanan press-relizlərin hamısı ingilis dilinə tərcümə edilərək saytda yerləşdirilir.

Nazirliyin fəaliyyətində şəffaflığın təmin edilməsi məqsədilə hesabat dövründə nazirliyin rəsmi saytında bir sıra bölmələr yaradılmışdır.

Nazirliyin strukturlarının KİV-lə və ictimaiyyətlə əlaqələrində səmərəliliyin artırılmasına, bu sahədə mövcud münasibətlərin yaxşılaşdırılmasına dair mütəmadi təkliflər verilmişdir.

İl ərzində Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən həyata keçirilən uğurlu islahat tədbirləri, əmək və sosial müdafiə sisteminin təkmilləşdirilməsi, xüsusən xidmətlərin elektronlaşdırılması yolu ilə məmur-vətəndaş təmaslarının aradan qaldırılması və xidmətlərin şəffaflaşdırılması, əhali üçün əlçatanlığı, vətəndaş müraciətlərinin yerində obyektiv araşdırılması və bu kimi tədbirlər əhaliyə göstərilən xidmətlərin keyfiyyətinin yüksəldilməsi məqsədini daşımışdır.